AZƏRBAYCAN RESPUBLİKASININ ŞƏHƏRSALMA VƏ TİKİNTİYƏ DAİR NORMATİV SƏNƏDLƏR SİSTEMİ

# YAŞAYIŞ VƏ QEYRİ-YAŞAYIŞ OBYEKTLƏRİ (KOMPLEKSLƏRİ, ZONALARI) ÜÇÜN PARKLANMA YERLƏRİNİN MİNİMAL SAYININ MƏCBURİ KVOTASI

RƏSMİ NƏŞR

AZƏRBAYCAN RESPUBLİKASININ
DÖVLƏT ŞƏHƏRSALMA VƏ ARXİTEKTURA KOMİTƏSİ

BAKI-2026

**“Yaşayış və qeyri-yaşayış obyektləri (kompleksləri, zonaları) üçün parklanma yerlərinin minimal sayının məcburi kvotası”** (Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi-Bakı, 2026-cı il, 5 səh.)

***İşləyib:*** *Azərbaycan İnşaat və Memarlıq Elmi Tədqiqat İnstitutu*

***Təsdiqə hazırlayıb və təqdim edib:*** *Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Texniki normalar, elm və layihəçilərlə iş şöbəsi*

***Təsdiq edilib:*** *Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Kollegiyasının 24.06.2026-cı il 2026-cI il tarixli 3-35/3-2-6/2026 nömrəli qərarı ilə*

***Qüvvəya minib:*** *16.07.2026-cI il tarixdən*

***Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi:*** *15202606245326*

***İlk dəfə qəbul edilir***

@ AzDŞAK-TN/Q № 0070-2026

**Yaşayış və qeyri-yaşayış obyektləri (kompleksləri, zonaları) üçün parklanma yerlərinin minimal sayının məcburi kvotası**

## 1. Ümumi müddəalar

1.1. Bu sənəd Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 27 dekabr tarixli 852 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019-2023-cü illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planının 7.2.13.3-cü abzasının icrası ilə bağlı hazırlanmışdır və yaşayış və qeyri-yaşayış obyektləri (kompleksləri, zonaları) üçün (bundan sonra - tikinti obyektləri) parklanma yerlərinin minimal sayının məcburi kvotasını müəyyən edir.

1.2. Tikinti obyektlərinin layihələndirilməsi və tikintisi zamanı həmin tikinti obyektləri nəqliyyat vasitələrinin saxlanılması üçün bu sənədin əlavəsinə (bundan sonra - əlavə) uyğun olaraq parklanma yerləri ilə təmin olunmalıdır.

1.3. Əlavədə nəzərdə tutulmuş tikinti obyektləri üçün parklanma yerlərinin əhalisi 50 min nəfərədək olan yaşayış məntəqələrində 50%, əhalisi 50-100 min nəfərədək olan yaşayış məntəqələrində isə 25% azaldılmasına yol verilir. Bu sənədlə nəzərdə tutulmuş parklanma yerlərinin minimal sayının məcburi kvotası kənd yaşayış məntəqələrinə (Abşeron rayonunun kəndləri istisna olmaqla) şamil edilmir.

1.4. Tikinti obyektləri üçün parklanma yerləri bu tikinti obyektlərinin istifadəçiləri tərəfindən istifadə üçün nəzərdə tutulur və həmin parklanma yerlərinin digər məqsədlər üçün istifadəsinə yol verilmir.

1.5. Bu sənəd qüvvəyə mindiyi tarixə qədər qanunvericiliklə müəyyən edilmiş qaydada tikintiyə icazə alınmış və tikintisi davam etdirilən tikinti obyektlərinin layihəsində dəyişiklik olduqda və mövcud tikinti obyektlərinin yenidən qurulması zamanı yeni yaradılacaq sahələr üzrə əlavədə müəyyən edilmiş tikinti obyektləri üçün parklanma yerlərinin minimal sayı təmin edilməlidir.

1.6. Bu sənədin məqsədləri üçün istifadə olunan əsas *anlayışlar aşağıdakı* mənaları ifadə edir:

1.6.1. **tikinti obyektinin istifadəçiləri -** tikinti obyektinin funksional xidmətlərindən bəhrələnən və yaxud Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada həmin tikinti obyektində mülkiyyət, icarə və ya istifadə hüququna malik hüquqi və fiziki şəxslər;

1.6.2. **tikinti obyektləri üçün parklanma yerləri -** tikinti obyektinin tikintisi üçün ayrılmış torpaq sahəsinin hüdudlarında tikinti obyektinin istifadəçilərinin nəqliyyat vasitələrinin saxlanması üçün nəzərdə tutulmuş duracaq yerləri.

1.7. Bu sənəddə istifadə olunan digər anlayışlar Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən edilmiş mənaları ifadə edir.

## 2. Tikinti obyektləri üçün parklanma yerlərinin minimal sayının məcburi kvotası

2.1. Tikinti obyektləri üçün parklanma yerlərinin minimal sayının məcburi kvotası əlavəyə uyğun olaraq qəbul edilir.

2.2. Əlavədə göstərilən parklanma yerləri tikinti obyektlərinin yerüstü və yeraltı

parklanma yerlərinin cəmi kimi müəyyən edilir.

Çoxmənzilli yaşayış binaları üzrə yeraltı parklanma yerlərinin sayı ümumi parklanma yerlərinin 50%-dən az olmamalıdır.

2.3. Çoxfunksiyalı binalar üçün parklanma yerlərinin ümumi sayı həmin binaların müxtəlif funksiyalı hər bölməsi üçün əlavədə göstərilən cədvələ uyğun ayrıca müəyyən edilərək ümumiləşdirilir və hesablamanın sonunda tapılan ədəd tam olmadıqda (kəsirdirsə) yuvarlaqlaşdırılmış say əsas götürülür.

2.4. Tikinti obyektlərindən metro, tramvay, şəhərətrafı dəmiryol nəqliyyatının dayanacaq və stansiyalarına və nəqliyyat mübadilə mərkəzlərinə qədər olan piyada gedişi məsafəsi 400 m-dən artıq olmadıqda parklanma yerlərinin 30% azaldılmasına yol verilir (yaşayış binaları istisna olmaqla).

2.5. Tikinti obyektləri üçün parklanma yerlərinin 5%-i (bir parklanma yerindən az olmamaq şərti ilə) əlilliyi olan şəxslərin istifadəsində olan nəqliyyat vasitələrinin saxlanması üçün nəzərdə tutulmalıdır və həmin parklanma yerləri "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş 1.24 nişanlanması ilə işarələnir. Əlillər üçün nəzərdə tutulan həmin parklanma yerlərində yalnız *"əlilliyi olan şəxs" tanınma nişanı* ilə nişanlanmış nəqliyyat vasitələri dura bilərlər.

2.6. Tikinti obyektləri üçün parklanma yerləri yanğından mühafizə, təcili tibbi yardım və qəza-xilasetmə bölmələrinə məxsus avtomobillərin tikinti obyektlərinin ərazisinə daxil olmasına və həmin avtomobillərin təyinatları üzrə istifadə olunmasına mane olmamalıdır.

2.7. Parklanma yerlərinin sayı 50 və ya daha çox olan tikinti obyektləri üzrə həmin yerlərin 5%-dən az olmayan sayda elektrik mühərrikli nəqliyyat vasitələri üçün elektrik enerjisi doldurucularının yerləşdirilməsi məqsədilə parklanma yerləri nəzərdə tutulmalıdır. Həmin parklanma yerlərində enerji doldurmaq məqsədilə elektrik mühərrikli nəqliyyat vasitələrinin durması istisna olmaqla, digər nəqliyyat vasitələrinin durması qadağandır.

“Yaşayış və qeyri-yaşayış obyektləri (kompleksləri, zonaları) üçün parklanma yerlərinin minimal sayının məcburi kvotası”na
Əlavə

**Tikinti obyektləri üçün parklanma yerlərinin minimal sayının məcburi kvotası**

| **Tikinti obyektlərinin təyinatı** | **Tikinti obyektləri üçün parklanma yerlərinin minimal sayı (avtomobil-yer)** |
|---|---|
| **1. Yaşayış binaları** | |
| 1.1. Çoxmənzilli yaşayış binaları | hər mənzil üçün 1 yer, ümumi sahəsi 180 $m^2$ və bundan yuxarı olan hər mənzil üçün 1,3 yer |
| 1.2. Fərdi yaşayış evləri | hər ev üçün 1 yer |
| **2. İdarəetmə, hüquq və maliyyə-kredit təşkilatları, ofis binaları və otaqları** | |
| 2.1. Dövlət orqanları (qurumları) üçün binalar | ümumi sahənin hər 75 $m^2$ üçün 1 yer |
| 2.2. Yerli özünüidarəetmə orqanları üçün binalar | ümumi sahənin hər 100 $m^2$ üçün 1 yer |
| 2.3. İş mərkəzləri, sığorta və hüquq təşkilatları, ofis binaları və otaqları | ümumi sahənin hər 50 $m^2$ üçün 1 yer |
| 2.4. Banklar və maliyyə-kredit təşkilatları | ümumi sahənin hər 50 $m^2$ üçün 1 yer |
| 2.5. Çoxfunksiyalı bina və komplekslər * | binanın müxtəlif funksiyalı hər bölməsi üçün bu cədvələ uyğun olaraq ayrıca müəyyən edilir |
| **3. Təhsil müəssisələri, elmi və layihə təşkilatları** | |
| 3.1. Məktəbəqədər təhsil müəssisələri | ümumi sahənin hər 300 $m^2$ üçün 1 yer |
| 3.2. Ümumi təhsil müəssisələri | ümumi sahənin hər 300 $m^2$ üçün 1 yer |
| 3.3. İlk peşə-ixtisas, orta ixtisas və ali təhsil müəssisələri | ümumi sahənin hər 200 $m^2$ üçün 1 yer |
| 3.4. Təlim-tədris və hazırlıq kursları | ümumi sahənin hər 300 $m^2$ üçün 1 yer |
| 3.5. Elmi, elmi-tədqiqat və layihə təşkilatları | ümumi sahənin hər 170 $m^2$ üçün 1 yer |
| **4. Səhiyyə müəssisələri** | |
| 4.1. Poliklinikalar və digər ambulator tipli müəssisələr | ümumi sahənin hər 100 $m^2$ üçün 1 yer |
| 4.2. Xəstəxanalar və digər stasionar tipli müəssisələr | hər 5 çarpayı üçün 1 yer |
| **5. Ticarət obyektləri** | |
| 5.1. Mağazalar (ayrıca yerləşən və ümumi sahəsi 200 $m^2$-dən çox olan) | ümumi sahənin 200 $m^2$-dən çox olan hər 50 $m^2$ hissəsi üçün 1 yer |
| 5.2. Bazarlar və topdan satış mərkəzləri | ümumi sahənin hər 100 $m^2$ üçün 3 yer |
| **6. İaşə obyektləri və mehmanxanalar** | |
| 6.1. Restoranlar | ümumi sahənin hər 50 $m^2$ üçün 1 yer |

| | |
|---|---|
| 6.2. Kafeteri və çayxanalar | ümumi sahənin hər 75 $m^2$ üçün 1 yer |
| 6.3. Şadlıq sarayları və mərasim zalları | ümumi sahənin hər 30 $m^2$ üçün 1 yer |
| 6.4. Mehmanxanalar və digər növ yerləşdirmə obyektləri | hər 15 çarpayı üçün 1 yer |
| 6.5. Motellər | otaq sayının ən azı 80%-i üçün yer |
| **7. Mədəniyyət və d*ini* obyektlər** | |
| 7.1. Kinoteatr, teatr, sirk, konsert və konfrans zalları | hər 10 oturacaq üçün 1 yer |
| 7.2. Kitabxanalar, rəsm qalereyaları, muzeylər və sərgi salonları | ümumi sahənin hər 350 $m^2$ üçün 1 yer |
| 7.3. Məscidlər, kilsələr, sinaqoqlar və digərləri | ümumi sahənin hər 100 $m^2$ üçün 1 yer |
| **8. İdman və əyləncə obyektləri** | |
| 8.1. Tamaşaçı yerləri olmayan idman obyektləri (məsələn məşq bazaları) | idman sahəsinin hər 200 $m^2$ üçün 1 yer |
| 8.2. Tamaşaçı yerləri olan idman kompleksləri və stadionlar | hər 20 oturacaq üçün 1 yer |
| 8.3. Tamaşaçı yerləri olmayan oyun və idman zalları (fitnes, idman və məşq zalları) | ümumi sahənin hər 100 $m^2$ üçün 1 yer |
| 8.4. Tamaşaçı yerləri olan oyun və idman zalları | ümumi sahənin hər 100 $m^2$ üçün 1 yer + hər 20 oturacaq üçün 1 yer |
| 8.5. Açıq üzgüçülük hovuzları, akvaparklar | hovuzun hər 10 $m^2$ sahəsi üçün 1 yer |
| 8.6. Tamaşaçı yerləri olmayan qapalı üzgüçülük hovuzları | ümumi sahənin hər 100 $m^2$ üçün 1 yer |
| 8.7. Tamaşaçı yerləri olan qapalı üzgüçülük hovuzları | ümumi sahənin hər 100 $m^2$ üçün 1 yer + hər 20 oturacaq üçün 1 yer |
| 8.8. İstirahət və əyləncə obyektləri (əyləncə mərkəzləri, oyun avtomatları zalları və s.) | ümumi sahənin hər 30 $m^2$ üçün 1 yer |
| **9. Kommunal obyektlər** | |
| 9.1. Hamamlar, saunalar | ümumi sahənin hər 35 $m^2$ üçün 1 yer |
| **10. Nəqliyyat obyektləri** | |
| 10.1. Sərnişin vağzalları (dəmir yolu, avtomobil, su nəqliyyatı və aerovağzallar) və limanlar | hər 10 sərnişin üçün 1 yer |
| 10.2. Nəqliyyat vasitələrinə texniki xidmət göstərən texniki-təmir sahələri və stansiyaları | ümumi sahənin hər 40 $m^2$ üçün 1 yer |
| **11. İstehsalat (sənaye, elmi-istehsalat, kommunal-anbar) obyektləri** | |
| 11.1. Sənaye və elmi-istehsalat müəssisələri | ümumi sahənin hər 150 $m^2$ üçün 1 yer |
| 11.2. Logistika (anbar) obyektləri | ümumi sahənin hər 250 $m^2$ üçün 1 yer |
| **12. Rekreasiya əraziləri və istirahət obyektləri** | |
| 12.1. Çimərliklər və parklar | hər 100 eyni zamanda gələn ziyarətçiyə 15 yer |
| 12.2. Meşə-parklar və qoruqlar | hər 100 eyni zamanda gələn ziyarətçiyə 7 yer |

| | |
|---|---|
| 12.3. İstirahət evləri və bazaları, sanatoriyalar, sanatoriya-profilaktoriyalar və turist bazaları | hər 100 istirahət edən üçün 10 yer |
| 12.4. Kurortlar, pansionatlar, təbii müalicəvi *sağlamlıq* mərkəzləri (*termal* kurortlar) | otaq sayının ən azı 25%-i üçün 1 yer |
| **13. Qəbiristanlıqlar** | |
| 13.1. Qəbiristanlıqlar | hər 1 hektar ərazi üçün 10 yer |

* Çoxfunksiyalı bina və komplekslərin layihəsində qeyri-yaşayış sahəsi kimi nəzərdə tutulan sahələrin funksiyaları ayrı-ayrılıqda təyin olunmadığı hallarda həmin qeyri-yaşayış sahələrinin hər 50 $m^2$ üçün 1 avtomobil-yeri tələb olunur.

**Qeydlər:**

1. Minik avtomobillərinin parklanması üçün minimal ərazi tələbi 2,3 m x 5 m qəbul edilməlidir.

2. Hava limanlarında, dəniz limanları və dəmiryol vağzallarının yanında turist avtobuslarının parklanması üçün duracaqların tutumu pik saatlarında hər 100 turistə 3-4 avtomobil-yeri norması ilə qəbul edilməlidir. Parklanma yerlərinin parametrləri avtobusların tutumu nəzərə alınmaqla hesablanmalıdır, lakin eni üzrə 3,0 m-dən, uzunluğu üzrə 8,5 m-dən və piyadaların təhlükəsiz keçidi üçün tikinti obyektləri üçün parklanma yerlərinin sərhədləri arasında eni 0,75 m-dən az olmamalıdır.

3. Tikinti obyektinin təyinatı dəyişdirildiyi halda həmin tikinti obyektinin yeni təyinatı üçün parklanma yerlərinin minimal sayı əlavədə müəyyən edilmiş parklanma yerlərinin minimal sayına uyğun olmalıdır.